***Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Daşkənddə Heydər Əliyev Meydanının açılışı mərasimində etdiyi çıxışında istər Azərbaycanın, istərsə də ölkəsinin müstəqilliyinin bərpa edilməsi ərəfəsində və müstəqilliyin ilk illərində üzləşdikləri ağır problemlərdən danışaraq, bildirib ki, o zaman hər iki xalq çətin, bəzən faciəli günlər yaşasa da, öz mənəvi dəyərlərini, milli qürur və mənliklərini qoruyub, öz gələcəklərini özlərinin qurması hüququnu saxlayıb, azadlığa doğru keçilən yol keşməkeşli olsa da, müstəqilliyə və suverenliyə doğru inamla irəliləyib. Azadlığı hər iki xalq yüksək dəyərləndirib, onu həmişə nəsillərin taleyi, həyatı, onların inamı və vicdanı kimi qiymətləndirib.***



# Strateji tərəfdaşlığın yeni mərhələsi

Özbəkistan rəhbəri daha sonra əldə edilmiş milli müstəqilliyi bu gün də layiqincə qiymətləndirməyin, onu hərtərəfli möhkəmləndirməyin və sonrakı nəsillərə çatdırmağın hamımızın müqəddəs borcu olduğunu vurğulayaraq, deyib: “Bu gün biz tarixin dərslərini nəzərə almaqla Heydər Əlirza oğlu Əliyevin nadir şəxsiyyətinə bir daha dərin ehtiramımızı bildiririk. Bir an və əbədiyyət öz aralarında ayrılmaz şəkildə bağlı olduğu kimi, Heydər Əliyevi də Azərbaycan xalqının tarixindən və onun həyatından ayırmaq olmaz.

Heydər Əliyev böyük Səməd Vurğunun ölməz misralarını tez-tez təkrarlayardı: “Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan!”. Buna görə də Heydər Əliyevin adı və obrazı bütün dünyada Azərbaycan xalqına xas olan bütün xeyirxah və nəcib keyfiyyətlərin rəmzi kimi qəbul edilir”.

Prezident Şavkat Mirziyoyevin çıxışında vurğulandığı kimi, ölkə həyatının ən dramatik dövründə prezident seçilən Heydər Əliyev sülhə və sabitliyə, vətəndaş həmrəyliyinə nail oldu, bir çox onillik irəlicədən müasir Azərbaycanın inkişaf vektorunun əsasını qoydu, iqtisadiyyatı, elmi, təhsili əsaslı şəkildə irəlilədə bildi, milli dəyərlərin dirçəldilməsinə, Azərbaycan xalqının tolerantlıq ənənələrinin möhkəmlənməsinə əlverişli şərait yaratdı. Qısa müddət ərzində respublikada yeni sahələr quruldu, onlarla iri zavod və fabrik tikildi, yüzlərlə məktəb, kitabxana, mədəniyyət sarayı və muzeylər açıldı. Azərbaycan sürətlə inkişaf etməyə başladı, demokratik hüquqi dövlət quruculuğu yoluna qədəm qoyaraq beynəlxalq arenada layiqli yer tutdu, yüksək nüfuz və hörmət qazandı.

***(ardı 3-cü səhifədə)***

*Biz dostlar kimi, qardaşlar kimi Özbəkistanın uğurlarına sevinirik. Əminik ki, qardaş özbək xalqının ardıcıl inkişafı davam edəcək. Biz də, əlbəttə, öz tərəfimizdən qarşılıqlı fəaliyyətimizi genişləndirmək üçün səy göstərəcəyik. Biz bu gün çox mövzular barədə ətraflı söhbət etdik. Ən başlıcası odur ki, bütün tapşırıqların yerinə yetirilməsinə nəzarət edəcəyik.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

*Mənim qardaşım, hörmətli İlham Heydər oğlu dahi atası Heydər Əliyevin işini davam etdirdi və Azərbaycan xalqının əzəli torpaqlarını geri qaytarmaqla tarixi ədaləti bərpa etdi. Bu gün Sizin rəhbərliyinizlə böyük quruculuq işləri aparılır. Bu torpaqlar bizim gözlərimiz qarşısında yenidən çiçəklənən diyara çevrilir. Biz bu nəcib işə öz töhfəmizi verməyə şad olarıq.*

*Şavkat MİRZİYOYEV*
*Özbəkistan Respublikasının Prezidenti*



# Strateji tərəfdaşlığın yeni mərhələsi

*(əvvəli 1-ci səhifədə)*

Özbəkistan Prezidenti nitqində Heydər Əliyevin əsl vətənpərvər olduğunu, adının belə rəmzi məna daşıdığını, "bələdçi" mənasını verdiyini xatırladaraq deyib: "O, həqiqətən, öz xalqının bələdçisi, lideri idi. O, öz fəaliyyətində böyük şair və mütəfəkkir Nizami Gəncəvinin müdrik sözlərinə istinad edərək həmişə deyirdi: "Doğma torpağa sevgini özümə borc bilirəm". Bu, onun həyatının mənası idi. Dahi şəxsiyyətin ən böyük arzusu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Cənubi Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar olması idi. Azərbaycan Prezidenti hörmətli İlham Heydər oğlu Əliyev tarixi ədaləti bərpa edərək bu arzunu uğurla həyata keçirdi".

Şavkat Mirziyoyev ölkəsinin Azərbaycan müstəqillik əldə etdiyi vaxtdan indiyədək beynəlxalq hüquq əsasında onun ərazi bütövlüyünü daim qətiyyətlə və sərt şəkildə dəstəklədiyini, bu mövqedə möhkəm dayanaraq, geri çəkilmədiyini bildirib, eyni zamanda, İkinci Qarabağ müharibəsində parlaq qələbə qazanan, haqq mübarizəsini uğurla başa çatdıran qardaş Azərbaycanı tarixi zəfəri münasibətilə özbək xalqı və şəxsən öz adından bir daha səmimi qəlbdən təbrik edib.

Həqiqətən də, Özbəkistan rəhbərinin çıxışında qeyd edildiyi kimi, Heydər Əliyevin fəaliyyəti, onun böyük şəxsiyyəti və zəngin irsi dünyanın müxtəlif ölkələrinin görkəmli siyasətçiləri və ictimai xadimləri tərəfindən daim yüksək qiymətləndirilib.

Dahi öndərin qardaş Özbəkistana münasibətinə gəldikdə isə deyə bilərik ki, Azərbaycanla bu respublika arasında dostluq münasibətlərinin, iki xalqın tarixi əlaqələrinin inkişafında və möhkəmlənməsində ümummilli lider mühüm rol oynayıb. Ulu öndərlə Özbəkistanın rəhbərləri Şərəf Rəşidov, daha sonra İslam Kərimov arasında etimada əsaslanan səmimi münasibətlər mövcud olub.

Prezident Şavkat Mirziyoyev Daşkənddə Heydər Əliyev Meydanının açılışı mərasimində etdiyi çıxışında, həmçinin bildirib ki, o dövrdə Azərbaycan və Özbəkistan arasında möhkəm dostluğun olması iki ölkənin və iki qardaş xalqın sıx qarşılıqlı əlaqə saxlamasına, bir sıra sahələrdə, o cümlədən, humanitar məsələlərdə fəal mübadilələrin inkişafına güclü təkan verib. Azərbaycan xalqının ümummilli lideri özbək xalqına həmişə böyük hörmətlə yanaşıb. Dünyada nüfuz sahibi və əsl ziyalı kimi tanınan dahi Heydər Əliyev özbək tarixinə, mədəniyyətinə və ənənələrinə səmimi heyranlığını daim diqqətə çatdırıb. Məsələn, Heydər Əliyev 1996-cı ildə Daşkənddə olarkən, Teymurilər Tarixi Muzeyini ziyarət edərək, Fəxri qonaqlar kitabında yazdığı qeyddə xüsusi olaraq vurğulayıb: "Əmir Teymurun xidmətlərinə, onun tarixi irsinə qayğıkeş, hörmətli münasibətə görə özbək xalqı çox sağ olsun". Bu, yüksək mənəviyyat və müdriklik təzahürü kimi Özbəkistanda heç zaman unudulmayıb.

Son illərdə iki ölkə arasında münasibətlər birgə səylər hesabına yüksək strateji tərəfdaşlıq səviyyəsinə yüksələrək, konkret məzmun kəsb edib. Bu məsələdə Prezident İlham Əliyev səmərəli fəaliyyət göstərib. Azərbaycan rəhbərinin indiki yüksək səviyyəli səfəri də Azərbaycan-Özbəkistan əməkdaşlığının yeni strateji inkişaf mərhələsinə daxil olması kimi dəyərləndirilib.

Hər iki ölkə prezidentinin görüşləri də bir sıra məqamları ilə yadda qalıb. Şavkat Mirziyoyev geniş tərkibdə görüşdə söylədiyi nitqində Azərbaycanın Özbəkistan üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaş olduğunu, ölkələrimizi ortaq din, mənəvi dəyərlər, oxşar ənənələr, dil və mədəniyyət birləşdirdiyini vurğulayaraq, respublikamızın möhtəşəm uğurlarının Özbəkistanda sevinclə qarşılandığını deyib. Özbəkistan rəhbəri daha sonra dövlətimizin başçısına xitabən bildirib: "Bu gün Sizin əldə etdiyiniz nailiyyətlər bütün dünyada tanınır. Mənim qardaşım, hörmətli İlham Heydər oğlu dahi atası Heydər Əliyevin işini davam etdirdi və Azərbaycan xalqının əzəli torpaqlarını geri qaytarmaqla tarixi ədaləti bərpa etdi. Bu gün Sizin rəhbərliyinizlə böyük quruculuq işləri aparılır. Bu torpaqlar bizim gözlərimiz qarşısında yenidən çiçəklənən diyara çevrilir. Biz bu nəcib işə öz töhfəmizi verməyə şad olarıq, bu barədə də məhdud tərkibdə keçirilən görüşdə danışdıq".

Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə" isə iki ölkənin əməkdaşlığının dərinləşməsinə, strateji münasibətlərinin güclənməsinə böyük inam yaradıb. Bu sənəd həm Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi nüfuzlu qurumlarda mühüm mövqeyə sahib olan Azərbaycan və Özbəkistanın beynəlxalq əlaqələrinin daha da genişlənməsinə, həm də iqtisadiyyatın müxtəlif sahələrində-ticarət, sənaye, kooperasiya, nəqliyyat sektorlarında dinamik artıma əlverişli şərait yaradıb.

Azərbaycan–Özbəkistan arasında strateji əməkdaşlıqdan irəli gələn indiki reallıqlar alternativ dəhlizlərin formalaşmasını da tələb edir. Bu baxımdan, Özbəkistan–Qırğızıstan–Çin və Termez–Məzari–Şərif–Kabil–Pişəvər dəmir yollarının tikintisi gələcəkdə ölkələrimizin Asiya-Sakit okean regionu və Cənubi Asiya dövlətlərinin 3 milyarddan çox istehlakçısı olan bazarlarına ən qısa yolla çıxışı imkanını şərtləndirir.

Bu məsələdə dövlətimizin başçısının Özbəkistana səfəri ərəfəsində Daşkənddə keçirilən biznesforum da mühüm önəm daşıyır. Prezident Şavkat Mirziyoyev geniş tərkibdə görüşdəki çıxışında deyib: "Bizim görüşümüz ərəfəsində səmərəli biznesforum keçirilib, yarım milyard dollardan yuxarı həcmdə investisiya sazişləri və ticarət müqavilələri paketi imzalanıb. Onların arasında neft-qaz, neft-kimya sahələrində, energetika, əczaçılıq, tikinti materialları istehsalı, şərabçılıq, yeyinti, toxuculuq məhsullarının və zərgərlik məmulatlarının istehsalı üzrə perspektiv layihələr mövcuddur. Ələt Azad İqtisadi Zonasının bazasında sonradan Avropa İttifaqı bazarlarına çıxmaqla layihələrin icrası üçün imkan var.

Həmçinin razılığa gəldik ki, layihələrin icrası üçün birgə investisiya fondu yaradılacaq, artıq növbəti ayda onların sürətli həlli üzrə proqram tədbirlərinin qəbul edilməsi üçün hökumətlərarası komissiyanın iclası təşkil olunacaq.

Hörmətli nümayəndə heyətinin üzvləri, nəqliyyat və kommunikasiya sahəsində əməkdaşlığımız strateji xarakter daşıyır. Biz Azərbaycanın müasir nəqliyyat şəbəkəsindən, o cümlədən, Bakı–Tbilisi–Qars dəmir yolundan istifadə edərək, yük daşımalarını bundan sonra da artırmaq niyyətindəyik. Bu, xüsusən, ərzaq və sənaye mallarının tranziti məsələlərinə aiddir".

Xatırladaq ki, Azərbaycan Prezidentinin Özbəkistana səfəri çərçivəsində sözügedən istiqamətdə birinci dərəcəli məsələlərin həlli üçün nəqliyyat və xarici işlər nazirlərinin rəhbərlikləri ilə işçi qrupu yaratmaq barədə razılığa gəlinib. Bununla bağlı ilk görüşün gələn ay Daşkənddə olacağı planlaşdırılıb.

Beləliklə, alternativ dəhlizlərin formalaşması iki ölkə iqtisadiyyatının müxtəlif sahələrinin şaxələndirilməsini, ixrac potensialının artırılmasını, xarici investisiyanın cəlb edilməsini sürətləndirəcək, bu, dövlətlərə böyük iqtisadi dividendlər qazandıracaq, yerləşdikləri regionlarda mövqelərini daha da gücləndirəcəkdir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***